**Rusiya Federasiyası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında**

# SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti,

iki dövlətin xalqları arasında münasibətlərin möhkəmləndirilməsində və ənənəvi dostluq əlaqələrinin inkişaf etdirilməsində qarşılıqlı arzusunu rəhbər tutaraq,

gənclər siyasəti sahəsində əməkdaşlığın Rusiya Federasiyasının və Azərbaycan Respublikasının gənc nəsillərinin nümayəndələri arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə kömək edəcəyinə əmin olduqlarını ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər gənclər siyasəti sahəsində aşağıdakılar vasitəsilə bir-biri ilə hərtərəfli əməkdaşlıq edirlər:

gənclər siyasəti sahəsində birgə tədbirlərin (simpoziumlar, konqreslər, konfranslar, seminarlar, festivallar, forumlar, sərgilər, müsabiqələr və sair) keçirilməsi;

gənclər siyasəti sahəsində fəaliyyət göstərən təşkilatlar arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi;

yay tətilinin təşkili və gənclərin sağlamlığının yaxşılaşdırılması, o cümlədən mədəni və maarifləndirici tədbirlərin təşkili üçün əlverişli şəraitin yaradılması.

## Maddə 2

Tərəflər hər il onların dövlətlərində gənclər siyasəti sahəsində fəaliyyət göstərən təşkilatlar haqqında məlumat mübadiləsi aparırlar.

Tərəflərin səlahiyyətli dövlət orqanları əməkdaşlıq qurmaq üçün öz dövlətinin maraqlı olan gənclər təşkilatları və birliklərinə digər Tərəfin dövlətinin gənclər siyasəti sahəsində fəaliyyət göstərən təşkilatları haqqında məlumat verirlər.

## Maddə 3

Tərəflər öz dövlətlərində keçirilən gənclərin problemləri ilə bağlı gənclər konfransları, müsabiqələri, festivalları və digər tədbirlər haqqında bir-birinə məlumat verirlər.

Hər bir Tərəf göstərilən tədbirlərdə digər Tərəfin dövlətinin nümayəndələrinin iştirakına köməklik göstərir.

**Maddə 4**

Tərəflər gənclər siyasəti sahəsindəki iş təcrübəsi barədə məlumat mübadiləsini, o cümlədən Tərəflərin dövlətlərinin kütləvi informasiya vasitələrində işıqlandırılması üçün həyata keçirirlər.

**Maddə 5**

Bu Sazişin həyata keçirilməsi məqsədilə Tərəflər gənclər siyasəti sahəsində əməkdaşlıq üzrə işçi qrup yaradırlar.

Birgə işçi qrupun milli hissələrinə Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarının rəhbərlərinin müavinləri rəhbərlik edirlər və onların səlahiyyətlərinə gənclər siyasəti sahəsində müvafiq səlahiyyətli orqanın fəaliyyətinin idarə olunmasının təmin edilməsinə dair məsələlər aiddir.

Birgə işçi qrup ötən il ərzində əməkdaşlığın nəticələrini yekunlaşdırmaq, növbəti il üçün tədbirlər planlarını hazırlamaq və imzalamaq məqsədilə illik iclaslar keçirir və onların həyata keçirilməsinin təşkilati və digər şərtləri razılaşdırılır.

**Maddə 6**

Bu Sazişin həyata keçirilməsində Tərəflərin dövlətlərinin məsul səlahiyyətli orqanları bunlardır:

Rusiya tərəfindən - Rusiya Federasiyasının Elm və Ali Təhsil Nazirliyi, Rusiya Federasiyasının Maarifləndirmə Nazirliyi, Gənclərlə İş üzrə Federal Agentliyi;

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi.

Tərəflər səlahiyyətli orqanlarının dəyişilməsi barədə bir-birini diplomatik kanallar vasitəsilə xəbərdar edirlər.

**Maddə 7**

Bu Saziş Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələr üzrə hüquq və öhdəliklərinə toxunmur.

**Maddə 8**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə ayrıca Protokollarla rəsmiləşdirilən dəyişikliklər edilə bilər.

**Maddə 9**

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı mübahisələr məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

**Maddə 10**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildiriş verməzsə, avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2019-cu il "14" noyabr tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

| **Rusiya Federasiyası Hökuməti adından** | **Azərbaycan Respublikası Hökuməti adından** |
| --- | --- |